# GILAS BITKISINDƏ KOKKOMIKOZ XƏSTƏLIYINƏ QARŞI KOMPLEKS MÜBARIZƏ TƏDBIRLƏRI

**Mədət Qurbanov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu, madat.qurbanov@gmail.com*

Gilas bitkisinin məhsullarına (meyvə, mürəbbə, turşu və s.) artan tələbatın nəticəsi olaraq son 10 ildə bu bitki altında olan bağ sahələri ildən-ilə artır və hal-hazırda ümumi bağ sahəsi 6761,5 ha təşkil edir (DSK məlumatı 01.01.2021). Qeyd etmək lazımdır ki, son 10 ildə ölkəyə müxtəlif ölkələrdən (Türkiyə, İtaliya, Almaniya, Fransa, ABŞ və s.) 55-ə qədər yeni gilas sortu gətirilərək müasir tələblərə cavab verən bağlar salınmışdır.

Gilas bitkisində klasterosporioz, monilioz, dəmgil, fuzarioz, vertisillioz və s. xəstəliklərlə yanaşı, kokkomikoz (*Coccomyces hilmalis* Higg.) xəstəliyinin də yayılması və bəzi illərdə müəyyən iqtisadi zərər vurması aşkar edilmişdir.

Tədqiqat və müşahidə işləri Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi ETB-da 2016-cı ildə 5x3 m sxemi ilə salınmış 1 ha gilas bağında, əlavə müşahidələr müxtəlif özəl təsərrüfatlarda aparılmışdır. Müşahidə və uçot işləri ümumi fitopatoloji metodlar əsasında aparılmışdır.

Kokkomikoz xəstəliyinin gilas bağlarında bu və ya digər dərəcədə inkişaf etməsi bağlarda aparılan aqrotexniki xidmət səviyyəsindən asılıdır. 2021-ci ilin may-avqust aylarında Quba-Xaçmaz bölgəsinin müxtəlif yaşlı, əkin sxemli bağlarında aparılmış marşrut tədqiqatları əsasında bu xəstəliyin yayılmasının 7,6%, inkişaf dərəcəsinin isə 1,9% olduğu müəyyən edilmişdir. Xəstəliyin əsasən aqrotexniki xidmət işlərinin zəif aparıldığı, müvafiq kimyəvi mübarizə işlərinin gecikdirildiyi bağlarda nisbətən çox inkişaf etdiyi müəyyən edilmişdir.

Xəstəliyə qarşı aqrotexniki mübarizə tədbiri kimi qış aylarında (dekabr, fevral) cərgəaralarının frezlənməsi, gövdə ətraflarının yumşaldılması ilə yerə tökülmüş yarpaqların məhv edilməsi nəticəsində xəstəliyin nəzarətə nisbətən daha az olduğu müəyyən edilmişdir. Belə ki, vegetasiya dövründə aparılmış müşahidələr əsasında becərmə işləri aparılmış variantda xəstəliyin yayılması və inkişaf dərəcəsi nəzarət variantı ilə müqayisədə 3 dəfə az olmuşdur.

Xəstəliyə qarşı kimyəvi mübarizə tədbiri kimi bir neçə tərkibli funqisiddən istifdə edilmiş və təcrübələrin nəticələri 1 saylı cədvəldə verilmişdir.

Gilas bitkisində kokkomikoz xəstəliyinə qarşı müxtəlif fungisidlərin tətbiqi
(MÇETİ-nin Zərdabi ETB, may 2022)

| s/s | Preparatın adı | Təsiredici maddə | Preparatın kəsafətliliyi, (%) | Bioloji səmərə, (%) |
|---|---|---|---|---|
| 1. | Koproxide | mis-hidroksid | 0,3 | 91,4 |
| 2. | Medeya | 50 q/l difenokonazol + 30 q/l flutriafol | 0,1 | 87,0 |
| 3. | Mankozeb | Mankozeb 80% | 0,25 | 82,4 |
| 4. | Nəzarət (kimyəvi mübarizəsiz) | - | - | - |

Cədvəldən göründüyü kimi, kokkomikoz xəstəliyinə qarşı tətbiq edilmiş funqisidlərdən Koproxide 91,4%, Medeya 87,0%, Mankozeb 82,4% bioloji səmərə vermişdir.

Beləliklə, gilas bitkisində müəyyən edilmiş kokkomikoz xəstəliyinə qarşı aqrotexniki mübarizə tədbirlərinin aparılması ilə yanaşı, kimyəvi mübarizə tədbirləri kimi kontakt (Koproxide) və sistem (Medeya) təsirli fungisidlərin tətbiqi yaxşı nəticə vermişdir.